UNITED NATIONS enable

# Əlilliyi olan şəxslərin hüquqları haqqında Beynəlxalq Konvensiya





**Asan oxunan versiyada**

Azərbaycan Respublikası
Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi

Bu sənəd, konvensiyaya dair asan oxuna bilən təlimatdır. Bu qanuni bir sənəd deyil. Konvensiya və onu hansı ölkələrin imzaladığı haqqında ətraflı məlumat almaq üçün konvensiyanın özünü oxumaq lazımdır.




Konvensiya haqqında ətraflı məlumatı BMT-nin İnternet saytından (**www.un.org/disabilities/**) əldə edə bilərsiniz.



Konvensiyanın tam adı Birləşmiş Millətlər Təşkilatının Əlilliyi olan şəxslərin Hüquqları haqqında Konvensiyasıdır (və ya BMT-nin Əlillik hüquqları haqqında Konvensiyası).

# 1.Bu Konvensiya



Ölkələrin əlilliyi olan şəxslərin digərləri kimi bərabər hüquqlara malik olması üçün nə etməli olduğunu izah edir.

# 2.Sözlərin mənası



- **Kommunikasiya** əlilliyi olan şəxslərə məlumatları anlamağa kömək edən vasitələrdir (məsələn kompüterlər, asan oxunula bilən və ya Brayl).



- **Ayrı-seçkilik** əlillik əlamətinə görə ədalətsiz davranılması və ya ehtiyacınız olan uyğunlaşdırma və dəyişiklik edilməməsidir.



- **Dil -** işarət dili də daxili olmaqla insanlar arasında ünsiyyət vasitəsidir.

# 3. Əsas fikirlər

## Bunlara daxildir:



- İnsanların öz seçimlərini etmək azadırlar.



- Heç kimə qarşı ayrı-seçkiliyə yol verilməməlidir.



- Əlilliyi olan şəxslərin hər kəs kimi cəmiyyətdə iştirak hüququ var.



- Əlilliyi olan şəxslərə hörmət edilməlidir.



- Hər kəs  bərabər imkanlara sahib olmalıdırlar.






- Hər kəs bərabər çıxış imkanlarına malik olmalıdır.



- Kişilər və qadınların bərabər imkanlara malik olmalıdırlar.



- Sağlamlıq imkanları məhdud uşaqlara fərd olaraq hüquqlarına hörmət olunmalıdır.

# 4. Ölkələr nə etməlidir?



Bütün ölkələr əlilliyi olan şəxslərə hər kəs kimi bərabər davranılması təmin etməlidirlər.

Onlar aşağıdakı öhdəlikləri üzərlərinə götürürlər:




- Əlilliyi olan şəxslərin hüquqları haqqında yeni qanun layihələrin hazırlanması və ya qanunvericilikdə dəyişikliklərin edilməsini .




- Bütün qanunvercilikdə əlilliyi olan şəxslərin bərabər hüquqlarının təmin olunmasını .



- Konvensiyaya zidd hərəkətlərin edilməməsi.



- Hökumətin və səlahiyyətli şəxslərin konvensiyadakı öhdəlikləri yerinə yetirmələrini.



- Əlilliyi olan şəxslərin ayrı-seçkiliyə məruz qalmaması üçün əlindən gələnin edilməsini.



- Hər kəsin istifadə edə və ya dəyişdirə biləcəyi avadanlıqların dizayn edilməsini.



- Əlilliyi olan şəxslərə kömək etmək üçün yeni texnologiyalardan istifadə edilməsini.



- Əlilliyi olan şəxslərə kömək edəcək məlumatlara əlçatanlığını təmin edilməsini .



- Konvensiya barədə insanların təlimat verilməsini.



Bütün ölkələr əlilliyi olan şəxslərin mənzil, təhsil, səhiyyə və digər xidmətlərə bərabər çıxış imkanlarının yaradılmasını vəd edirlər.



Bütün ölkələr əlilliyi olan şəxsləri yeni qanun və siyasətlərin hazırlanmasında iştirak etməyə cəlb etməlidirlər.



# 5. Bərabərlik

Bütün ölkələr qanun qarşısında hər kəsin bərabər olduğunu və əlilliyə qarşı ayrı-seçkilikliyin yol verilməz olduğunu qəbul edirlər.

# 6. Əlilliyi olan qadınların hüquqları



Ölkələr bir çox hallarda qadın və qızların hüquqlarının pozulduğu qəbul edirlər.



Ölkələr əlilliyi olan qadın və qızların tam, azad və bərabər hüquqlara sahib olması üçün çalışacaqlar.

## 7. Sağlamlıq imkanları məhdud uşaqların hüquqları



Ölkələr sağlamlıq imkanları məhdud uşaqların digər uşaqlarla eyni hüquqlara malik olduğunu və onlara digərləri ilə eyni davranılmalı olduğunu qəbul edirlər.

İlk növbədə uşaqların ali maraqları nəzərə alınır.



Ölkələr sağlamlıq imkanları məhdud uşaqların öz həyatlarına dair bütün məsələlər barədə məlumatlı olmaq hüququnun olmasını qəbul edirlər. Bunun üçün uşaqlara dəstək göstəriləcəkdir.

## 8. Əlilliklə bağlı insanların məlumatlandırılması



Bütün ölkələrin əlilliyi olan şəxslərin digər insanlar kimi bərabər hüquqlarının olduğu və onların bacarıqları barədə insanları məlumatlandırmağa çalışacaqlar.

Aşağıda göstərilənləri üzərlərinə götürürlər:



- İnsanların əlilliyi olan şəxslər barədə düşüncələrini  dəyişdirmək məqsədi ilə kompaniyaların təşkil edilməsini.



- Əlilliyi olan şəxslərin bacarıqlarını hər kəsə nümayiş etdirilməsini.



- Bütün uşaqlara əlilliyi olan şəxslərin bərabər hüquqlarının olduğunun öyrədilməsini.



- Mediada əlilliyi olan şəxslər haqqında doğru məlumatların verilməsini .



- Əlillik barədə məlumatlılığın artırılmasına dəstəyi

# 9. Əlçatanlıq

Ölkələr əlilliyi olan şəxslərin həyatın bütün sahələrində əlçatanlığını təmin etməlidirlər.




- Xəstəxana və məktəb kimi ictimai binalar və nəqliyyat əlçatan olmalıdır.




- Məlumatlar əlçatan olmalıdır



- Simvolların asan oxunan və Brayl əlifbasında olmalıdır.



- İctimai binalarda kifayət qədər təlimat və işarət dili tərcüməçiləri olmalıdır.



- İctimai xidmətlərə çıxışı daha yaxşı təmin etmək üçün qaydalar olmalıdır.



- Xidmət göstərənlərin əlilliyi olan şəxslər üçün daha yaxşı əlçatan mühiti planlaşdırmalıdır.



- Əlçatanlıq haqqında təlimlər verilməlidir.



- Əlilliyi olan şəxslərin yeni texnologiyalardan istifadəsi üçün şərait yaratmalıdırlar.

# 10. Yaşamaq hüququ



Əlilliyi olan şəxslər də daxil olmaqla hər kəsin yaşamaq hüququ var.



Ölkələr əlilliyi olan şəxslərin digərləri kimi yaşaması üçün eyni imkanları yaradırlar.

# 11. Fövqəladə humanitar hallar



Riskli vəziyyətlərdə, məsələn zəlzələ və qasırğa zamanı əlilliyi olan şəxslərin təhlükəsizliyi təmin edilməlidir.

# 12. Qanun qarşısında bərabərlik



Əlilliyi olan şəxslərə də hər kəs kimi qanunla qorunurlar.



Əlilliyi olan şəxslərin də hər kəs kimi vacib məsələlərlə bağlı öz qərarlarını vermək hüquqları var.

Qərar verərəkən ehtiyac olduqda əlilliyi olan şəxslərə lazımi dəstək göstərilməlidir.




Əgər şəxsin başqa birinin onun əvəzinə danışmağına ehtiyacı varsa, o zaman bunun düzgün şəkildə aparılması üçün qaydalar olmalıdır. .

Əlilliyi olan şəxslərin hər kəs kimi aşağıdakı hüquqları var:



- Əmlaka sahib olmaq və ya bağışlamaq.



- Pullarını özlərinin idarə etmək.



- Hər kəs kimi kredit götürmək.



- Ev və pullarının onlardan qanunsuz alınmamaq.

# 13. Ədliyyə sisteminə əlçatanlıq



Əlilliyi olan şəxslərin hər kəs kimi məhkəməyə getmək kimisə məhkəməyə vermək və məhkəmə prosesində iştirak etmək hüququ var.



Əlilliyi olan şəxslər bu hüquqları həyata keçirtmək üçün dəstək almalıdırlar.



Ölkələr məhkəmə, həbsxana işçiləri və polislər üçün xüsusi təlimlər keçirməlidirlər.

# 14. Azad və təhlükəsiz şəraitdə olmaq



Əlilliyi olan şəxslər hər kəs kimi azad və təhlükəsiz şəraitdə olmalıdırlar.



Əlilliyi olan şəxslər əlilliyinə görə həbs oluna bilməz, digər hallarda isə qanunla həyata keçirilir.

Əgər əlilliyi olan şəxslər həbs olunarsa, onlara bu Konvensiyada göstərilən qaydada davranılmalıdır.





Həmçinin onlar beynəlxalq hüquq normalarına uyğun olaraq digərləri ilə bərabər hüquqlara malikdirlər. həmin hüquqlar bu konvensiyada yazılmayıb, lakin konvensiyada olan hüquqlara aşağıdakılar daxildir:





- Onlara öz hüquqları barədə əlçatan formada məlumatlar almaq hüququ.
- Məhkəmə prosesinin ədalətli şəkildə həyata keçirilməsi üçün kömək və dəstək almaq hüququ.



- Onların məhkəmə işinə digərləri kimi yenidən baxılması üçün müraciət etmək hüququ.

## 15. İşgəncə və qəddar münasibətə məruz qalmamaq



Əlilliyi olan şəxslərə işgəncə edilə və qəddar münasibət göstərilə bilməz.



Əlilliyi olan şəxslərin üzərində onların öz razılığı olmadan təcrübə, xüsusən də tibbi təcrubələr aparıla bilməz .



Bu halların baş verməməsi üçün ölkələr əllərindən gələni etməlidir.

## 16. İstismar və sui-istifadə hallarına yol verilməməsi




Ölkələr əlilliyi olan şəxslərin evdə və evdən kənarda zorakılıqdan, istismardan qorunmasından əmin olmaq üçün qanun və qaydalar qəbul etməlidirlər.



Ölkələr, həmçinin sui-istifadə hallarının qarşısını almağa çalışmalı, əlilliyi olan şəxslər sui-istifadə halları ilə qarşılaşdıqları zaman necə və hara müraciət etməli olduqları barədə məlumatlandırılmalı və təlim keçirməlidirlər.



Ölkələr sui-istifadə hallarının baş verməməsi üçün əlilliyi olan şəxslərə göstərilən xidmətlərin lazımi qaydada yoxlanıldığına nəzarət etməlidirlər.



Ölkələr istismara məruz qalan əlilliyi olan şəxslərə ehtiyacı olan dəstək və kömək göstərməli və onların bərpasını təmin etməlidirlər.



Ölkələr sui-istifadə ilə bağlı halların aşkarlanmasını və sui-istifadə edənləri məhkəməyə cəlb etməlidir.



Ölkələr xüsusilə qadın və uşaqların istismarının qarşısının alınması ilə bağlı tədbirlər görməlidir.

## 17. İlk növbədə əlilliyi olan şəxslərə insan kimi davranılması



Əlilliyi olan şəxslərin ağılları və bədənləri özlərinə məxsusdur və onlara hər kəs kimi hörmət edilməlidir.

# 18. Yerdəyişmə

Əlilliyi olan şəxslərin aşağıdakı hüquqları var:



- Hər kəs kimi harada yaşamaq və haraya köçməsi barədə qərar vermək.



- Əlilliyi olan şəxsin hər hansı bir ölkənin vətəndaşı olmaq və əlillik əlamətinə görə bu hüquqdan məhrum edilməmək.

- Digər insanlar kimi pasporta və müxtəlif sənədlərə sahib olmaq.



- Öz ölkələri də daxil olmaqla, hər hansısa bir ölkəni tərk etmək.



- Sağlamlıq imkanları məhdud uşaqların doğulduqdan sonra ad və vətəndaşlıq almaq və mümkün olduğu halda , valideynləri tərəfindən tanınmaq və onların qayğısı ilə təmin olunmaq hüquqları var.



# 19. Müstəqil yaşamaq və cəmiyyətin üzvü olmaq



Ölkələr əlilliyi olan şəxslərin hər kəs kimi necə yaşamaları və öz cəmiyyətlərinin bir hissəsi olmaları ilə bağlı seçim edə bilmələrini təmin etməlidirlər.



Əlilliyi olan şəxslər digərləri kimi seçim edə bilərlər:

- Yaşadıqları yeri.



- Kiminlə yaşamasını.




- Onlar üçün ayrılmış xüsusi yerlərdə yaşamamağı.



- Onlar üçün ayırılmış fərdi kömək də daxil olmaqla, bir sıra müxtəlif dəstək xidmətləri ilə bağlı.
- Təqdim olunan xidmət növlərini seçməyi və onlardan yararlanmağı.



# 20. Sərbəst hərəkət etmə

Ölkələr əlilliyi olan şəxslərin mümkün olduğu qədər müstəqil şəkildə hərəkət edə bilmələrini təmin etməlidirlər.

Ölkələr:



- Əlilliyi olan şəxslərin hərəkət etməsinə kömək etməlidirlər.



- Əlilliyi olan şəxslərin lazımi yardımlar alması və hərəkətlərinin asanlaşdırılmasına kömək etməlidirlər.



- Göstərilən xidmətlərin sərfəli qiymətə olmasını təmin etməlidirlər.



- Sərbəst hərəkətlə bağlı təlimlər təşkil etməlidirlər.



- Texniki avadanlıqlar istehsal edən şirkətlərin əlilliyi olan şəxslərin ehtiyaclarını nəzərə almağı təmin etməlidirlər.

# 21. Söz azadlığı və məlumatlara əlçatanlıq



Ölkələr əlilliyi olan şəxslərin digərləri kimi məlumat əldə etmək, vermək və istədiklərini söyləmək hüquqlarına malik olmalarını təmin edirlər.



Bunun üçün aşağıdakılar etməlidirlər:

- Məlumatların Asan oxunan versiya kimi ehtiyaclara uyğun təqdim edilməsi.



- Məlumatları işarət dilləri, Brayl və  digər şəkildə təqdim edilməsi.



- Xidmətlərlə bağlı məlumatların əlçatan formada olmasını təmin edilməsi.



- İnternet də daxil olmaqla, mediyada məlumatların əlçatan olması.



- İşarət dilinin istifadəsini genişləndirilməsi.

## 22. Şəxsi həyat



Əlilliyi olan şəxslərin şəxsi həyat hüququ vardır və buna heç kim müdaxilə etməmlidir.



Ölkələr hər kəs kimi  əliliyi olan şəxslərin şəxsi məlumatlarını gizli saxlanılması və yayılmamasını təmin etməlidirlər.

## 23. Evə və ailəyə hörmət



Ölkələr əlilliyi olan şəxslərin evlilik, ailə və şəxsi münasibətlərdə bərabər hüquqlara sahib olmalarını təmin edirlər.



- Əlilliyi olan cütlüklərin digərləri kimi istədiyi zaman ailə qurmaq və nikahı davam etdirməkdə bərabər hüquqları vardır.



- Əlilliyi olan şəxslərin neçə uşağa və onlara nə vaxt sahib olacağına qərar vermək hüququ var və onların razılığı olmadan uşaq sahibi olmaq hüquqları əllərindən alına bilməz.



- Əlilliyi olan şəxslərin ailə planlaması və digər məsələlərlə bağlı məlumatları almaq hüquqları vardır.



- Ölkələr əlilliyi olan şəxslərin uşaqlarını böyütmələrinə dəstək göstərməlidirlər.



- Sağlamlıq imkanları məhdud uşaqların ailələrindən ayrılmamaq hüququ vardır. Ölkələr sağlamlıq imkanları məhdud uşaqlara və onların ailələrinə dəstək olmalıdırlar.



- İlk növbədə uşaqların maraqları nəzərə alınır.



- Ölkələr uşağın maraqlarına zidd olan hallar istisna olmaqla, digər hallarda valideynlərindən alınmamalarını təmin edirlər. Uşaqlar istər özləri, istər valideynlərinin əlilliklərinə görə ailələrindən alınmamalıdırlar.

# 24. Təhsil



Əlilliyi olan şəxslərin təhsil almaq hüququ var.




Ölkələr əlilliyi olan şəxslərin ümumtəhsil məktəblərə getmə imkanından və ömürboyu təhsillərini davam etdirmələrini təmin etməlidirlər.



- Əlilliyi olan şəxslər bacarıq və qabiliyyətlərini inkişaf etdirərək dünyada öz yerlərini tuta bilərlər.



- Əlilliyi olan şəxslər hər hansısa bir təhsil növündən kənarlaşdırıla bilməzlər.



- Əlilliyi olan şəxslər hər kəs kimi ödənişsiz qaydada yerli məktəbdə təhsil ala bilərlər.



- Əlilliyi olan şəxslərin ehtiyacları mümkün olan hallarda qarşılanmalıdır.



- Əlilliyi olan şəxslər öyrənmək üçün lazımi dəstəyi alırlar.



- İnsanlar lazım olan hallarda Brayl əlifbasını və ünsiyyət qurmağın digər yollarını öyrənə bilməldirlər.



- İnsanlar işarət dilini eşitmə qabliyyəti məhdud şəxslərin dilini qəbul etməli və bu dili öyrənməlidir.



- Eşitmə və görmə qabiliyyəti məhdud olan uşaqlara uyğun təhsil və öyrənmək üçün dəstək verilməlidir.



- Əlilliyi olan şəxslərə dərs deyən müəllimlər uyğun biliklərə sahib olmalıdırlar.



- İstədikləri halda yetişkin əlilliyi olan şəxsləri təhsillərini davam etdirmələri üçün uyğun dəstək almalıdırlar.

# 25. Sağlamlıq



Əlilliyi olan şəxslərin sağlamlıq hüququ var. Ailə planlaması da daxil olmaqla bütün tibbi xidmətlərindən istifadə etmək hüququ var.

Bunun üçün ölkələr aşağıdakıları təmin etməlidirlər:



- Əlilliyi olan şəxslərin digərləri ilə eyni tibb xidmətlərdən faydalana bilməsini.

- Əlilliyi olan şəxslər ehtiyaclarına uyğun tibb xidmətləri almasını.



- Xidmətlərin insanların yaşadığı yerə yaxın olmasını.



- Tibb işçilərinin əlilliyi olan şəxslərə digərləri kimi eyni davranmasını və xidməti göstərməsini.



- Əlilliyi olan şəxslərə qarşı sağlamlıq və həyat sığortası ilə bağlı ayri-seçkiliyin olunmamasını.

- Əlilliyi olan şəxslərə əlilliklərinə görə qayğı göstərilməsi və müalicə edilməsindən imtina edilməməsini.

# 26. Reabilitasiya xidmətləri



Ölkələr əlilliyi olan şəxsləri sağlamlıq, iş, təhsil və sosial xidmətlərlə təmin edərək onların müstəqil və sağlam həyat sürməsinə dəstək verməlidirlər.



- Ölkələr əlilliyi olan şəxslərin ehtiyac və güclü tərəflərini erkən mərhələdə aşkar etmək və onlara lazımi dəstək və xidməti almalarını təmin etməlidirlər.



- Bu xidmətlər əlilliyi olan şəxslərin yaşadığı yerlərə mümkün olduğu qədər yaxın olmalıdır.




- İşlərini yaxşı görmək üçün heyətə təlim keçirilməlidir.



- Ölkələr əlilliyi olan şəxslərin reabiltasiyası üçün müxtəlif vasitə və avadanlıqlarla təmin etməlidirlər.

# 27. İş



Əlilliyi olan şəxslərin digərləri kimi işləmək hüquqları var.

Ölkələr əlilliyi olan şəxslərin işləməsi üçün daha çox tədbir görməli və buna aşağıdakı yollarla təmin etməldirlər:






- Əlilliyi olan şəxslərə iş yerində bərabər şəkildə və ədalətli davranılması üçün qanunların qəbul edilməsini






- Əlilliyi olan şəxslərin bərabər şəkildə iş və əmək haqqı hüquqlarını.






- Əlilliyi olan şəxslərin hamı kimi həmkarlar ittifaqına üzv olmaq hüququna sahib olmasını.



- Əlilliyi olan şəxslərin iş proqram və təlimlərində iştirakını




- Əlilliyi olan şəxslərin iş tapmaq və onu davam etdirmək, eləcə də daha yaxşı iş tapmağa köməklik etməyi



- Əlilliyi olan şəxslərin öz işlərini qurmağa köməklik etməyi



- Əlilliyi olan şəxslərə dövlət, birlik və xəstəxana kimi yerlərdə iş verilməsini



- Şirkətlərin əlilliyi olan şəxslərə iş verməsinə köməklik göstərilməsini



- Əlilliyi olan şəxsləri uyğun iş yerləri ilə



- Əlilliyi olan şəxslərin işə uyğunluğunun yoxlanılmasını



- Əlilliyi olan şəxslərin işə qaytarılmasını



- Ölkələr əlilliyi olan şəxslərin pulsuz işləməyə məcbur edilməməsini

## 28. Yaşayış səviyyəsi



Əlilliyi olan şəxslər və ailələrinin digərləri kimi bərabər yemək, geyim, mənzil və təmiz su daxil olmaqla normal yaşayış səviyyəsinə malik olmaq hüquqları var.

Əlilliyi olan şəxslər öz yaşayış səviyyələrini hər kəs kimi yaxşılaşdırmaq üçün yardım ala bilməlidirlər.

Bunun üçün ölkələr aşağıdakıları təmin etməlidirlər:





- Əlilliyi olan şəxslərə əlillikləri ilə bağlı sərfəli qiymətə xidmət və yardımlar göstərilməsini
- Əlilliyi olan şəxslərə, xüsusən qadın, qız və ahıllar yetərincə yaxşı yaşamaları üçün kömək edilməsini



- Yoxsul əlilliyi olan şəxslərin əlilliklərinə görə dövlətdən yardım almalarını



- Əlilliyi olan şəxslərin sosial yardımlardan faydalana bilməsini



- Əlilliyi olan şəxslər digərləri kimi bərabər şəkildə pensiya almalarını

# 29. Siyasətdə iştirak



Əlilliyi olan şəxslərin hər kəs kimi siyasətdə iştirak etmək hüququ var.



- Səsvermə prosesi əlilliyi olan şəxslər üçün asan və başa düşülən olmalıdır.
- Əlilliyi olan şəxslər üçün səsvermə gizli olmalıdır.



- Əgər lazım olarsa, səsvermə zamanı onlara köməyin göstərilməlidir.



- Əlilliyi olan şəxslərin qeyri-hökumət təşkilatları və siyasi partiyalara üzv ola bilməlidir.



- Əlilliyi olan şəxslərin əlil təşkilatlarına üzv ola bilərlər.



- Əlilliyi olan şəxslərin millət vəkili seçilmək üçün seçkilərdə iştirak etmək hüququ var.



## 30. İdman və istirahət

Əlilliyi olan şəxslərin hər kəs kimi idman və istirahət etmək hüquqları var.

Ölkələr aşağıdakıları təmin etməlidirlər:




- Kitab və digər vasitələrə əlçatan olmasını



- Televiziya, film və teatrların əlçatan olmasını




- Əlilliyi olan şəxslərin muzey və digər yerlərə sərbəst girə bilməsini



- Əlilliyi olan şəxslərin sənətçi olmaq imkanları olmalıdır.




- Qaydalar və qanunlar əlilliyi olan şəxslərin kitab və film kimi vasitələrə əlçatanlığına mane olmamalıdır.



- Eşitmə qabiliyyəti məhdud şəxslərə və digərlərinə hörmət edilməlidir.



- Əlilliyi olan şəxslərə idmanda iştirak üçün dəstək verilməlidir.



- Əlilliyi olan şəxslərin onlar üçün xüsusi idman və istirahət tədbirlərində iştirak edə bilməlidirlər.



- İdman və istirahət məkanları onlar üçün əlçatan olmalıdır.



- Sağlamlıq imkanları məhdud uşaqlarda bu hüquqlara sahibdir.

# 31. Məlumat toplama



Ölkələr bu Konvensiyanın həyata keçirilməsinə kömək edən məlumatları toplamalıdırlar.



Ölkələr əlilliyi olan şəxslərə aid şəxsi məlumatları  gizli saxlamalıdırlar.

Hökumət toplanmış məlumatları hamı kimi əlilliyi olan şəxslərə də əlçatanlığını təmin etməlidir.

# 32. Birlikdə işləyən ölkələr




.

Bu konvensiyanın həyata keçirilməsi üçün ölkələr tərəfdaş kimi işləməlidirlər.

Ölkələr birgə görülən işlərə əlilliyi olan şəxsləri də daxil etməlidirlər.



- Bütün ölkələrin məlumat, təcrübə və biliklərini paylaşmalıdırlar.
  .



- Ölkələrin birgə apardıqları araşdırmaları və onların nəticələrini paylaşmalardırlar.

# 33. Konvensiyanın həyata keçirilməsi

Hökümətlər aşağıdakıları etməlidirlər:



- Bu Konvensiyanı həyata keçirən hökümət qurumu olmalıdır.



- Bu Konvensiyanın həyata keçirilməsini yoxlamaq üçün üsul tapılmalıdır.



- Konvensiyanın həyata keçirilməsində əlilliyi olan şəxslərdə cəlb edilməlidirlər.

# 34. Əlilliyi olan şəxslərin hüquqları üzrə Komitə



Bütün ölkələr Konvensiyanın düzgün şəkildə həyata keçirilməsinə nəzarət edən xüsusi komitə formalaşır. Bu, Birləşmiş Millətlər Təşkilatında yerləşir.

# 35. Ölkələrin hesabatları



Hər bir ölkə bu Konvensiya üzrə görülmüş işlər haqqında hesabat yazır və bu Konvensiyaya qoşulduqdan sonra 2 il ərzində Komitəyə göndərir.




- İlk hesabatı verdikdən sonra, hər bir ölkə 4 ildə bir hesabat göndərir. Komitə onlardan tələb edərsə, əlavə hesabat verir.



- Ölkələr hesabatlarına nə yazacağına Komitə qərar verir.



Hesabatlarda əlilliyi olan şəxslərin hüquqları ilə bağlı məsələləri  də əhatə edir.

# 36. Hesabatlara bağlı olanlar



Komitə hesabatları nəzərdən keçirir və ölkələrə fikir və məsləhətlər verir.

Komitə ölkələrdən hesabatlarla bağlı daha çox məlumat istəyə bilər.




- Əgər hesabat gecikərsə, Komitə hesabatı göndərməyən ölkəni xəbərdarlıq edir və 3 ay ərzində o ölkədə nə olduğunu araşdıracağını bildirir.



- Bütün ölkələr hesabatların hamısını əldə edə bilərlər.



- Hər bir ölkə öz hesabatını və Komitənin bunun barədə söylədikləri insanlara açıq olur.



- Komitə lazım gəldikdə yardım və məsləhət almaq üçün hesabatları fərqli şöbə və təşkilatlara göndərir.

# 37. Komitə və ölkələrin birgə işləməsi



Hər bir ölkə Komitə ilə birlikdə çalışır və Komitə üzvlərinə lazım olan məlumatları verirlər.



Komitə ölkələrlə birgə necə daha yaxşı işləməyi araşdıracaq.

# 38. Komitənin digər təşkilatlarla birgə işləməsi




Bu Konvensiyanı həyata keçirmək üçün bütün ölkə və təşkilatların birlikdə işləməsi vacibdir.



- Komitə müxtəlif şöbə və təşkilatlar öz sahələri üzrə məsləhət və məlumat alırlar.



- Komitə digər insan hüquqları təşkilatlarından bu Konvensiyaya uyğun görülən işlərlə bağlı hesabat istəyə bilər.

## 39. Komitənin Hesabatı




Komitə Baş Assambleya və İqtisadi və Sosial Şurana hər 2 ildə bir hesabat yazır. Buraya müxtəlif ölkələrin nə etməsi ilə bağlı məlumatlar daxildir.

## 40. İştirakçı ölkələrin iclasları



Konvensiyanın icrası ilə bağlı ölkələr tez-tez iclaslar keçirirlər.




İlk iclas bu konvensiyanın  başlamasından ən gec 6 ay sonra keçirilir.
Baş katib gələcək toplantıları təşkil edir.

# 41. Bütün hesabat və məlumatların saxlanılması



Birləşmiş Millətlər Təşkilatının Baş katibi bu Konvensiyanın bütün məlumat və hesabatlarını saxlayır.

# 42. Konvensiyanın imzalanması




Ölkələr bu konvensiyanı 30 mart 2007-ci ildən etibarən Birləşmiş Millətlər Təşkilatının Nyu-Yorkdakı Baş Qərargahında imzalaya bilərlər.

## 43. Razılaşma və Təsdiq



Ölkələr bu Konvensiyanı ona qoşulmaya qərar verdikdən sonra imzalayırlar. Bundan sonra Konvensiya qoşulmaqları təsdiq olunur.

Konvensiyanı imzalamayan digər ölkələr də buna qoşula bilərlər.

## 44. Qrup ölkələr



Bəzi ölkələr Avropa Birliyi kimi təşkilatlarda birləşir.



Həmin təşkilatlar da konvensiyaya qoşula bilərlər və ölkələr bu konvensiya ilə bağlı danışıqlarda söz sahibi olurlar.

## 45. Konvensiya nə vaxt qüvvəyə minir?




Konvensiya 20 ölkənin qoşulur və 30 gün keçdikdən sonra qüvvəyə minir.

## 46. Konvensiyaya əməl etmə



Ölkələr bu konvensiyanın məcburi bölmələrini imzalamağı rədd edə bilməzlər.

## 47. Konsensiyaya əlavə və dəyişikliklər



Hər bir ölkə konvensiyaya dəyişiklik etməyi istəyə bilər. Bunu yazılı olaraq Baş Katibə bildirir və o da başqa ölkələrə xəbər edir.

Ölkələr dəyişiklik etməklə bağlı iclas edib və ya etməməsi barədə qərar verirlər.

# 48. Əgər hər hansı bir ölkə Konvensiyadan çıxmaq istəsə






Hər bir ölkə Baş katibə yazaraq bu konvensiyadan çıxa bilər. Məktubun göndərilməsindən 1 il sonra konvensiyaya üzvlük dayadırılır.

# 49. Əlçatan məlumatlar



Bu konveniyanın asan oxunan versiyası var.

# 50. Konvensiya digər dillərdə



Bu konvensiya ərəb, çin, ingilis, fransız, rus və ispan dillərində var və eyni qüvvədədir.